# Yalçın Nəbiyevin yeni kitabı işıq üzü görüb




Bu günlərdə yazıçı Yalçın Nəbiyevin "O dünya" adlı yeni romanı "Elm və təhsil" nəşriyyatı tərəfindən çap olunaraq oxucuların ixtiyarına verilib. Əsərin əsas mahiyyətini bəşəri dəyərlər, dünyagörüş və mənəvi zənginlik təşkil edir. Roman ömür yollarında azmamaq üçün hər kəsin bir missiyası olduğunu, həyatı araşdırmağın, dərk etməyin vacibliyini, sevginin, dostluğun, ayrılığın labüd olduğunu qabarıq şəkildə önə çəkməklə, oxucunu vicdanı qarşısında hesabat verməklə həyatda düzgün yol seçməyə, ədalət hissini itirməməyə sövq edir.

Bu, Birinci Qarabağ müharibəsi veteranı Yalçın Nəbiyevin "Vosxojdenie" və "Çuxurnamə" kitablarından sonra oxucularla üçüncü görüşüdür.

Kitabın redaktoru və ön sözün müəllifi Aləm Kəngərlidir.

Ədəbiyyat qəzeti.- 2024.- 20 yanvar, №2.- S.17.